# ÜRƏKŞƏKİLLİ CÖKƏ (*Tilia cordata* MİLL.) BİTKİSİNİN MÜALİCƏVİ FAYDALARI

**Ramiz Ələkbərov, İlhamə Hüseynova, Zəhraxanım Abbaszadə**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu,*
*ramiz_alakbarli@mail.ru, ilhamehuseynova1977@gmail.com, abbaszade.zara@mail.ru*

Şuşa regionunda təbii halda bir çox bitkilər yayılmışdır. Belə ki, qarağac, dəmirağacı, gilas ağaclarına, gərməşov, zirinc, saqqızağacı, nar, qarağat, böyürtkən, moruq kollarına rast gəlmək mümkündür. Qeyd olunan bitkilərlə yanaşı, qiymətli dərman bitkilərinə də təsadüf edilir. Bunlardan biri haqqında məlumat verməyi məqsədəuyğun hesab edirik.

Geniş yayılmış dərman bitkilərindən biri *Tilia cordata* Mill. – Ürəkşəkilli cökədir. *Tiliaceae* Juss. – Cökəkimilər fəsiləsinə və *Tilia* L. – Cökə cinsinə daxildir [4, s. 233]. Böyük ağac və sıx kök sisteminə malik olub, hündürlüyü 25-30 m-dir. Cavan budaqları hamar, düz, parlaq, tünd-qəhvəyi rəngdə olmaqla, yaşlı gövdəsi tünd və uzununa bölünmüş formalıdır. Qozaları və cavan gövdəsi hamardır. Yarpaqları növbəli, uzun saplaqlı, bütöv, dairəvi-yumurtaşəkilli və ya dairəvi ürəkşəkilli, uzunluğu 3-8 sm, eni bu ölçüyə yaxın olmaqla, itiuclu, kənarları dişcikli və çılpaqdır. Üst tərəfi tünd yaşıl, alt tərəfi isə göy rənglidir. Enliyarpaq və qarışıq meşələrdə rast gəlinir [1, s. 87].

Çiçəklərinin fitokimyəvi tərkibi tiliasin qlükozidi, flavonoidlər, aşı maddələri, saponinlər, selik, vitaminlər və şəkərdən ibarətdir. Bitkinin özünəməxsus qoxusu tərkibində efir yağları, seskviterpen və alifatik farnezol spirtinin olması ilə əlaqədardır. Çiçəklərinin tərkibində tərqovucu maddələr vardır [3, s. 123].

Xalq və ənənəvi təbabətdə bu dərman bitkisi sedativ, iltihabqovucu, hərarətsalıcı, tərqovucu, öskürəkkəsici, diuretik və spazmolitik təsirlərə malikdir. Nevroz, yuxarı tənəffüs yollarının iltihabi xəstəlikləri, angina və qrip xəstəliklərinin sağaldılmasında istifadə edilir. Sidikqovucu, ağrıkəsici və iltihab əleyhinə xüsusiyyətlərinə görə pielonefrit, sistit, revmatizm, podaqra, mədə və bağırsaq spazmları, böyrəkdaşı və öddaşı xəstəliklərinin müalicəsində istifadə edilir. Xarici vasitə kimi saç tökülmələrində, ağız və badamcıqların iltihabı (angina) xəstəliklərində, mastit, xora, yanıq, babasil və oynaq iltihablarında təyin edilir. Bitkidən hazırlanan aktivləşdirilmiş kömürdən zəhərlənmələr, meteorizm (köp) və ishalda, çiçəklərindən isə likör və konyak istehsalında istifadə olunur. Xaricə təyin etmək üçün 4-5 xörək qaşığı çökə çiçəyi 2 stəkan qaynar suda dəmlənərək tətbiq edilir [2, s. 152].

Landşaft müxtəlifliyi baxımından əlverişli sayılan Şuşa regionu ərazilərində işğala qədər 2000-dən çox bitki növü mövcud olmuşdur ki, bu da Azərbaycan florasının 42%-ni təşkil edirdi. Bölgədəki 70-dən çox bitki növü dünyanın, eləcə də Azərbaycan Respublikasının "Qırmızı kitab"larına daxil edilmişdir [5, s. 826].

**Ədəbiyyat:**

1. Dəmirov İ., Bağırov R. Azərbaycanın faydalı dərman bitkiləri. Bakı: Azərnəşr, 1969, 112 s.
2. Dəmirov İ.A., Manafov Ə.B., İslamova N.A. Farmakoqnoziya. Bakı, 1984, 263 s.
3. Mehdiyeva N.P. Azərbaycanın dərman florasınınn biomüxtəlifliyi. Bakı: Letterpress, 2011, s. 188.
4. Səyyarə İbadullayeva, Ramiz Ələkbərov. Dərman bitkiləri (*Etnobotanika* və *Fitoterapiya*) – Medicial plants (*Ethnobotany* and *Phytoterapya*). Bakı: Təhsil-Elm, 2013, 331 s.
5. Ибадуллаева С.Д., Алекперов Р.А., Гасымов Г.З. *Thymus hyemalis* (*Lamiaceae*) – новый вид для флоры Азербайджана. Санкт-Петербург: Бот. жур., 2014, т. 99, № 7, с. 825-827.